***Ümüdşah Ağabalayev***

***Xocalıda faciə***

Həmin gecə qan çiləndi torpağa,
Xocalıda ərşə qalxdı nalələr!
Dünya döndü lal sükutlu otağa,
Verilmədi bu dünyaya bir xəbər.

Ermənilər yağmaladı bu yurdu,
Qan içində matəmləşdi bu Vətən.
Başdan-başa silahlanan bir ordu,
Qarşısında yetimləşdi bu Vətən.

Güvənərək qartal gözlü arxaya,
Güllələrdən "çiçək açdı" səmada.
Yasa batdı əzəmətli dağ-qaya,
Qan ləkəsi çilənmişdi dünyada.

Tarix özü ağlayırdı həmin gün,
Daşların da yaşarmışdı gözləri.
Qan nəfəsli gecə yaşamaq üçün,
Gözləyirdi matəm tutan səhəri...

***Ağabalayev Ü. Xocalıda faciə : şeir // Ağabalayev Ü. Soltanəlinin uğursuz taleyi. – Bakı : Şirvannəşr, 2010. – S.- 137.***